# AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI

# 5

## BRÜSSEL – ÇİMLİ-PODZOL TORPAQLAR

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI"
ELMİ MƏRKƏZİ

BAKI–2014

**BÜLBÜLOĞLU** Polad (d. 4.2.1945, Bakı) – Azərb. bəstəkarı, müğənni. Azərb. SSR əməkdar incəsənət xadimi (1973). Azərb. SSR xalq artisti (1982). *Bülbülün* oğludur. Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1968, Q.Qarayevin sinfini). Onun sənətkar kimi yetişməsində atasının böyük rolu olmuşdur. B. mahnı bəstəkarı və öz mahnılarının ifaçısı kimi tanınmışdır. "Azərbaycan", "Bənövşə", "Dolalay", "Durnalar", "Sən eləsən, mən belə", "Gözlərinə de ki", "Dilin can incidəndir", "Baxdın sən üzümə..." və s. mahnıları geniş



şöhrət qazanmışdır. SSRİ-nin və dünyanın bir çox şəhərində musiqi proqramları ilə çıxış etmişdir. Yaradıcılığına dinamiklik, müasirlik ruhu, incə lirizm, nikbinlik xasdır. 1970 ildə gənclər üçün yazdığı populyar mahnılara görə 1976–85 illərdə dəfələrlə Ümumittifaq televiziyası mahnı festivallarının laureatı olmuşdur. B. bədii və televiziya filmlərinə ["İstintaq davam edir" (1966, rej. Ə. Atakişiyev), "Uşaqlığın son gecəsi" (1968, rej. A. Babayev), "Ən vacib müsahibə" (1971, rej. E. Quliyev), "Oxuyur Müslüm Maqomayev" (1971, rej. T. İsmayılov), "Mən mahnı qoşuram" (1979, rej. T. İsmayılov), "Babək" (1979, E. Quliyev), "Yol əhvalatı" (1980, rej. T. Bəkirzadə), "Qorxma, mən səninləyəm" (1981, 2-ci film 2013, rej. Y. Qusman; hər iki filmdə həm də baş rolda çəkilmişdir) və s.] musiqinin, xor və orkestr üçün simfoniyanın (1980), simfonik poemanın, süitaların, "Mahnıma inan" müziklinin (1985), "Eşq və ölüm" baletinin (2005) və s. əsərlərin müəllifidir. Özünün yaratdığı "Aşıqlar" vokal-instrumental ansamblının bədii rəhbəri (1981–87), Azərb. Dövlət Filarmoniyasının direktoru (1987–88), Azərb. Resp.-nın Mədəniyyət naziri (1988–2006), eyni zamanda beynəlxalq TÜRKSOY təşkilatının Baş direktoru (1994–2006) olmuşdur. B. 2006 ildən Azərb. Resp.-nın RF-dəki fövqəladə və səlahiyyətli səfiridir.